# ƏDƏBİYYAT

UOT 821.512.154

## SULTAN RAYEVİN "DAŞQIN" ROMANINDA QLOBALLAŞAN DÜNYANIN İNSAN VƏ ZAMAN KONTEKSTİNDƏ DƏYƏRLƏNDİRİLMƏSİ

**Elman Quliyev**
**Filologiya elmləri doktoru, professor**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Türkoloji mərkəzin Türk ədəbiyyatı bölməsinin müdiri**
**Bakı, Azərbaycan**
**elman.guliyev1958@gmail.com**
**Orcid: 0000-0001-5413-9479**

**Xülasə**

Məqalədə Qırğız ədəbiyyatının görkəmli yazıçısı Sultan Rayevin "Daşqın" romanında hadisələrin reallıqla mifizmin qarşılıqlı bağlılığı şəraitində cərəyan etdirilməsi məqamları təhlilə cəlb edilmişdir. Romanda baş verən və baş verəcək bütün proseslər insan və zaman konteksində dəyər qazanır. Kxe romanın mərkəzi obrazıdır. Bütün hadisə və əhvalatlar onun ətrafında cərəyan edir.O, möhkəm əqidəli dindardır. Kxe özünü Yaradanın qulu hesab edir. Onun qəlbində iman işığı parlayır. Sultan Rayev bir növ Kxenin timsalında cənnəti, cəhənnəmi, sevinci, kədəri, həyatı, ölümü və s. yalnız yaşadığımız torpaqda axtaran insanın özü və insanlığın əbədi mahiyyəti barədə fikirlər formalaşdırır. Bu məqamda onu süni intellektin bəşəriyyəti xilas edə bilərmi sualı ilə üz-üzə saxlayır. Böyük su daşqını zamanı Allahın qəzəbindəki süni intellekt faktorunun mövcudluğu qoyulan sualın ritorikasını müəyyənləşdirir. Məqalədə qeyd olunmuşdur ki, Sultan Rayev romanda dünyanın dərkini birbaşa olaraq insanın özünüdərkindən keçirməyi bacarır. Ona görə də proseslər dünyada baş vermiş (Nuh tufanı və Nəhəng su daşqını) və baş verəcək (dini inanclardakı Qiyamət günü) qiyamət düşüncələri daxilində davam etdirilir, insanlığın mahiyyəti barədə suallara cavab axtarılır. Sultan Rayev süni intellektin doğurduqlarını (qəlbi, ruhu, vicdanı və əxlaqı olmayan süni insan) tərəddüd etmədən insanlığın tənəzzülü kimi dəyərləndirir. Əsərdə süni intellektin doğurduqları ilə təbii insan intellektinin qarşılaşdırılma səhnələri kifayət qədər maraq doğurur. Bu məqamda təhlil bir qədər çətinləşir. Çünki gerçək insan oğlu (Kxe) süni intellektin yaratdıqlarını və yaşantılarını (Prezident, mer, Etik və s.) psixoloji və mənəvi olaraq asan dərk edə bilmir. Ona görə də əsərdəki baxış və dəyərləndirmə harmoniyası bu cür situasiyalarda pozulur. Nəticədə bitən və davam edən hadisələr polifonik baxış müstəvisində suallar doğurur və həqiqi dəyər almağın zəruriliyinə ehtiyacı artırır. Sultan Rayevin "Daşqın" romanı mifik -fantastik sujetlər əsasında yazılmış əsərdir. Romandakı mifizm elementlərindən həyatı daha dərindən dərk etmək üçün istifadə edilmişdir. Məqalədə qeyd olunmuşdur ki, insanlıq keyfiyyətləri yüksək olanlar təkcə Tanrının yox, həm də taleyin sınağından məharətlə çıxa bilirlər. Bu baxımdan Sultan Rayev öz qəhrəmanı (həm də idealı) olan Kxenin yeni dünyanın yeni sakini olmasının səbəbini həyata olan sevgisi ilə bağlayır. Bu həm də Allahın insanlara verdiyi haqdır. Demək dünya nizamı qorxu yox, sevgi üzərində yarana bilir: Allaha, dünyaya və insanlara olan sevgi üzərində. Bunu həm də dünyada nizamlı yaşamaq üçün (həm də dünya nizamı qurmaq üçün) müəllifin insanlara çağırışı kimi də qəbul etmək olar.

***Açar sözlər:*** *S.Rayev, qırğız, Kxe, mif, reallıq*

## THE EVALUATION OF SULTAN RAYEV'S "DAŞKIN" ("FLOOD") NOVEL IN THE CONTEXT OF HUMAN AND TIME IN A GLOBALIZING WORLD

**Elman Guliyev**
**Doctor of Philological Sciences, professor**
**Azerbaijan State Pedagogical University**
**Head of the Turkish Literature Department at the Turkology Center**
**Baku, Azerbaijan**

**Summary**

The article analyzes the interaction between reality and mythology in the events of Sultan Rayev's novel "Daşqın", a prominent work in Kyrgyz literature. In the novel, all the processes that occur or will occur

gain value within the context of human beings and time. Kxe is the central character of the novel. All events and circumstances revolve around him. He is a devout man with strong convictions, considering himself a servant of God. The light of faith shines in his heart. Sultan Rayev, through the character of Kxe, explores the concepts of heaven, hell, joy, sorrow, life, death, and more, reflecting on the nature of the individual and the eternal essence of humanity, searching for these within the earth we live on. At this point, the question arises: can artificial intelligence save humankind? The presence of artificial intelligence in the context of God's wrath during the great flood determines the rhetoric of this question. The article mentions that Sultan Rayev in the novel successfully conveys the understanding of the world through the individual's self-awareness. Therefore, the processes are continued within apocalyptic concepts that have occurred in the world (Noah's flood and the Great deluge) and those that will occur (the Day of Judgment in religious beliefs), as answers are sought to questions about the essence of humanity. Sultan Rayev does not hesitate to evaluate what artificial intelligence has created (artificial humans with no heart, soul, conscience, or morality) as the decline of humanity. In the work, scenes contrasting artificial intelligence creations with natural human intellect are quite intriguing. At this point, the analysis becomes more complex. This is because the real human (Kxe) cannot easily comprehend, psychologically or spiritually, the creations and experiences of artificial intelligence (President, Mayor, Ethics, etc.). As a result, the harmony of perspectives and evaluations in the work is disrupted in such situations. Ultimately, the events that end and continue give rise to questions from a polyphonic perspective, increasing the need to attain true value. Sultan Rayev's "Daşqın" ("Flood") is a work written based on mythical-fantastic themes. The elements of mythology in the novel are used to deepen the understanding of life. The article mentions that those with high human qualities are able to pass not only God's but also fate's trials skillfully. In this regard, Sultan Rayev connects the reason for his protagonist (and ideal) Kxe becoming a new inhabitant of the new world with his love for life. This is also a right given to humans by God. Therefore, the world order can arise not from fear, but from love: love for God, the world, and humanity. This can also be interpreted as the author's call to people to live in an orderly manner in the world (and to establish a world order).

***Key words:*** *S.Rayev, Kyrgyz, Kxe, myth, reality*

## ОЦЕНКА ГЛОБАЛИЗИРУЮЩЕГОСЯ МИРА В КОНТЕКСТЕ ЧЕЛОВЕКА И ВРЕМЕНИ В РОМАНЕ СУЛТАНА РАЕВА «DAŞQIN» («НАВОДНЕНИЕ»)

**Эльман Гулиев**
**Доктор филологических наук, профессор**
**Азербайджанский государственный педагогический университет**
**Руководитель отдела турецкой литературы Туркологического центра**
**Баку, Азербайджан**

### Резюме

В статье анализируется взаимодействие реальности и мифологии в романе выдающегося киргизского писателя Султана Раева «Daşqın» («Наводнение»). Все события, которые происходят и будут происходить, приобретают в романе значение в контексте человека и времени. Кхе является центральным персонажем романа. Все события и происшествия разворачиваются вокруг него. Он – верующий человек с твёрдыми убеждениями, считает себя рабом Творца. В его сердце горит свет веры. Султан Раев через образ Кхе высказывает мысли о человеке, ищущем рай, ад, радость, грусть, жизнь, смерть и так далее на земле, на которой мы живем, а также задумывается о вечной сущности человечества. В этом контексте возникает вопрос, может ли искусственный интеллект спасти человечество? Присутствие фактора искусственного интеллекта в момент великого потопа в гневе Бога определяет риторику данного вопроса. В статье отмечается, что Султан Раев в романе успешно передает восприятие мира через самопознание человека. Поэтому процессы, происходившие в мире (потоп Ноя и Великий потоп) и те, которые предстоят (День Суда в религиозных учениях), продолжаются в рамках апокалиптических размышлений, и ищутся ответы на вопросы о сущности человечества. Султан Раев без колебаний оценивает последствия искусственного интеллекта (искусственные люди, не имеющие сердца, души, совести и морали) как упадок человечества. В произведении сцены противопоставления созданий искусственного интеллекта и естественного человеческого интеллекта вызывают значительный интерес. На этом этапе анализ усложняется. Потому что настоящий человек (Кхе) не может психологически и морально легко понять творения и

переживания искусственного интеллекта (президент, мэр, этика и т. д.). Поэтому гармония взглядов и оценок в произведении нарушается в таких ситуациях. В итоге завершенные и продолжающиеся события порождают вопросы в полифонической перспективе, увеличивая необходимость в получении истинной ценности. Роман Султана Раева «Daşqın» («Наводнение») написан на основе мифико-фантастических сюжетов. Элементы мифологии в романе использованы для более глубокого осознания жизни. В статье отмечается, что те, у кого высокие человеческие качества, могут с мастерством пройти не только через испытания Бога, но и через испытания судьбы. В этом контексте Султан Раев связывает причину того, что его герой (и идеал) Кхе с его любовью к жизни становится новым жителем нового мира. Это также является правом, данным Богом людям. Следовательно, мировой порядок может возникнуть не из страха, а из любви: любви к Богу, к миру и к людям. Это можно также воспринять как призыв автора к людям жить в порядке в мире (и для создания мирового порядка).

***Ключевые слова:*** *С.Раев, киргиз, Кхе, миф, реальность*

**Aktuallıq.** Məqalədə təsvir olunan hadisələr mifizmlə reallığın qarşılıqlı bağlılığı şəraitində cərəyan edir. Yacıçı bu prosesə insan və zaman kontekstində dəyər qazandırır. Dünyada əbədi və daimi olan heç nə yoxdur amma yeni olan çox şey var fəlsəfəsi romanın mahiyyətində oturur. Müəllif dünyanın əbədi məntiqini bu fəlsəfə daxilində əks etdirir. Ona görə də təkcə bu dünyada yaşamaq yox, necə yaşamaq idealı müəllifin son qənaəti kimi ifadəsini tapır.

**Annotasiya.** Sultan Rayevin “Daşqın” romanı yeni məzmun, yeni üslub , yeni ideya keyfiyyətlərinə malik olması, eyni zamanda zəngin mifik və şifahi xalq ənənələrinə bağlılığı baxımından təkcə qırğız ədəbiyyatı üçün yox, həm də ümumtürk ədəbiyyatı üçün aktuallığı ilə seçililir. Bu roman qırğız ədəbiyyatı üçün daha xarakterik olan ənənəvilikdən fərqli olaraq ilk dəfə insan və zaman kontekstində dünyanın dərki problemlərini ifadə etmək baxımından səciyyəvidir.

**Metod**. Məqalədə tarixi-müqayisəli, nəzəri-estetik təsviri metodlardan istifadə edilmişdir.

XX əsrin əvvəllərində yaranan və əhəmiyyətli inkişaf yolu keçən qırğız yazılı ədəbiyyatı qısa zaman kəsiyində yeni forma, məzmun, üslub və ideya keyfiyyətlərinə yiyələnməklə yanaşı, paralel olaraq zəngin mifik və şifahi xalq ənənələrinə bağlılığını da qoruyub saxlaya bilmişdir. Bu mənada Çingiz Aytmatov, Mukan Elebayev, Coomart Bokonbayev, Cusup Turusbayev, Toqoloq Moldo, Toktoqul Satılqanov, Aalı Tokonbayev, Qasıməli Jontaşev, Sultan Rayev və s. kimi korifey sənətkarların yeni məzmun və yeni ideya dəyərləri aşılayan yaradıcılıqlarının “Manas” ruhunu, mif və reallığın sintezində həyatı dərk etməyin metaforasını izləmək o qədər də çətin deyil.

Təbii ki, Qırğızıstanın xalq yazıçısı Sultan Rayevin həm forma və üslub rəngarəngliyi, həm də milli- tarixi maraq səviyyəsinin və milli ideallara sədaqətinin yüksəkliyi, o cümlədən, vətəndaş-yazıçı mövqeyinin üstünlüyü ilə fərqlənən bədii yaradıcılığı bu sırada önəmli yerlərdən birini tutur. Özünəməxsus üslubu, mövzu aktuallığı, məzmun dərinliyi, mifik-real düşüncə sistemləri daxilində hadisələrin dəyərləndirilməsi baxımından oxucu marağını cəlb edən Sultan Rayev yaradıcılığında “Daşqın” romanının xüsusi yeri vardır. “Daşqın” romanında hadisələr reallıqla mifizmin qarşılıqlı bağlılığı şəraitində cərəyan etdirilir. Romanda baş verən və baş verəcək bütün proseslər insan və zaman konteksində dəyər qazanır. Sultan Rayev romanda dünyanın dərkini birbaşa olaraq insanın özünüdərkindən keçirməyi bacarır. Ona görə də proseslər dünyada baş vermiş (Nuh tufanı və Nəhəng su daşqını) və baş verəcək (dini inanclardakı Qiyamət günü) qiyamət düşüncələri daxilində davam etdirilir, insanlığın mahiyyəti barədə suallara cavab axtarılır. Romanın müxtəlif hissələrində rast gəlinən Peyğəmbər kəlamlarına, Bibliya və İslam ilahiyyatçılarına istinadlar da insanlığın mahiyyətinin müəyyənləşməsinə xidmət göstərir.

Kxe romanın mərkəzi obrazıdır. Bütün hadisə və əhvalatlar onun ətrafında cərəyan edir. O, möhkəm əqidəli dindardır. Kxe özünü Yaradanın qulu hesab edir. Onun qəlbində iman işığı parlayır. Onun düşüncəsinə görə dünyada Allahın iradəsindən kənarda heç nə yoxdur. O necə istəsə kainatda hər şey o cür olar. Bu iman, bu əqidə Kxeni yaşadığı cəmiyyətdə hamıdan fərqləndirirdi. Yaşadığı cəmiyyətdə isə Tanrı imanından uzaq olan embrionlar vasitəsi ilə dünyaya gələn insanlar çoxluq təşkil edir və bu insanlar Allahın iradəsindən kənar işlər görə bilirlər. Bu cəmiyyətin

prezidenti də, meri də, kütləvi informasiya vasitələri də süni insan ixtiraçısı professor Yan Helmutun nəzəriyyəsi ətrafında birləşərək insanları Allahı tanımaqdan imtinaya səsləyirlər. Bu cəmiyyətdə kişi kişi ilə, qadın qadınla evlənə bilərdi, əxlaqlar unudulmuşdu, bəşəriyyət pozğunluğa bulaşmışdı, insanlar üçün müqəddəs olan heç nə qalmamışdı, insanlıq anlayışı yad bir məhfuma çevrilmişdı. Lakin Allah sevgisi ilə yaşayan, Allahın sözünü xalqa çatdırmaq istəyən insanlar isə təqib olunur, barələrində ölüm hökmü çıxarılırdı. Kxenin ölüm hökmünə məruz qalmasını səbəbi də bu idi. Kxe ölüm ayağında ölüm qorxusu ilə yox, Allah sevgisi ilə yaşayır. Əsas hadisələr də bundan sonra baş verir. Allah yer üzünü Böyük Fəlakətə- Böyük su daşqınına məruz qoyur. Yer üzündə Nuh tufanından sonra ikinci su daşqını baş verir. Yer kürəsi suya qərq olur, bütün canlılar məhv olur. Yalnız Allah sevgisi ilə yaşayan Kxe ailəsi ilə birlikdə sağ qalır. Kxenin qəlbindəki Allah sevgisinə cavab olaraq, Tanrıya olan imanına görə Allah okeanlar ortasında su altında qalmayan bir parça torpaq saxladı. Kxe arvadı Man, oğlu Etix və qızı Duna ilə burada yaşamalı oldular.

Romanda bundan sonra bütün hadisələr həmin dörd nəfər ətrafında cərəyan edir. Sultan Rayev hadisələri dünyada əbədi və daimi canlı olan heç nə yoxdur, amma yeni olan çox şey var fəlsəfəsi üzərində cərəyan etdirir. Bir növ dünyanın əbədi məntiqini və gözəlliyini də bu konteksdə axtarır. Ona görə də Nəhəng su daşqını zamanı baş verənlər fonunda mifoloji təsvirlərin heç biri oxucunu tərki-dünyalığa, mistik aləmə aparmır, onu real aləmdən uzaqlaşdırmır, hər şey sanki mövcud dünyada baş vermiş kimi qəbul edilir.

Müəllifin qırğız şairi Baqri Alıkulovdan romana epiqraf seçdiyi şeir parçasında da bu fikir təsdiqini tapır:

Cənnət bizim Torpaqdadı,
Cəhənnəm bizim Torpaqdadı.
Sevinc bizim Torpaqdadı,
Kədər bizim Torpaqdadı.
Həyat bizim Torpaqdadı,
Ölüm bizim Torpaqdadı.

Romanda nə varsa metoforik olaraq həyatın nişanə və əlamətləridir. Əsərdəki proseslərin hamısı yaşadığımız dünyanın reallıqlarını əks etdirmək baxımından xarakterikdir. Müəllif haqlı olaraq dünyanın və insanlığın qarşılaşdığı faciələrin elementlərini elmi tərəqqinin insanlığa hesablanmayan son nailiyyətləri və mənəviyyat sərhədlərini aşan sivilizasiyaların son həddində axtarır. Əslində bu “axtarışların” pafosunu elm qanadlarında uçaraq insanlığın təməl prinsiplərindən uzaqlaşmalarının faciəsi və Azərbaycanın dahi şairi M. Şəhriyarın təbirincə desək “kökdən qopmağın” fəlakətləri təşkil edir.

Təməddünün gözü görüm kor olsun,
Ağzındakı şirin, şərbət şor olsun
Bal da yesə zəhər olsun, çor olsun,
Ağzımızın dadın qapıb apardı,
Ürəkləri çəkib kökdən qopardı.

Sultan Rayev süni intellektin doğurduqlarını (qəlbi, ruhu, vicdanı və əxlaqı olmayan süni insan) tərəddüd etmədən insanlığın tənəzzülü kimi dəyərləndirir. Əsərdə süni intellektin doğurduqları ilə təbii insan intellektinin qarşılaşdırılma səhnələri kifayət qədər maraq doğurur. Bu məqamda təhlil bir qədər çətinləşir. Çünki gerçək insan oğlu (Kxe) süni intellektin yaratdıqlarını və yaşantılarını (Prezident, mer, Etik və s.) psixoloji və mənəvi olaraq asan dərk edə bilmir. Ona görə də əsərdəki baxış və dəyərləndirmə harmoniyası bu cür situasiyalarda pozulur. Nəticədə bitən və davam edən hadisələr polifonik baxış müstəvisində suallar doğurur və həqiqi dəyər almağın zəruriliyinə ehtiyacı artırır.

Yazıçı tərəfindən sərgilənən bu mövqe XIX əsr Türkiyə türk ədəbiyyatının nəhəng şəxsiyyəti Ziya Paşanın "Tərcibənd" əsərinin mahiyyətində oturan klassik İslam və modern Qərb fəlsəfəsinin, o cümlədən Kopernik düşüncə sisteminin müəyyən məqamları ilə üst-üstə düşür. Ziya Paşanın bu əsəri əski türk ədəbiyyatında kainat və həyat haqqında sistemli mənzumə kimi dünyanın ədalətsiz, əcaib, sirli suallarına cavab tapılmayan bir məkana bənzədilməsi və s. haqqında fikirlər geniş yer alır:

Yarəb, neçün bu arsada hər şəxsi arifin
Miqdari fəzlinə görə dərdi olur füzun
və yaxud,
Subhanə mən tahayyare fi sunihil-ukül,
Subhanə mən bi kudretihi ya cüzül-fuhül

(Uca qüdrəti ilə Allahı təsbih edərəm. Onun hər cür qüsur, eyib və nöqsanlardan uzaq olduğunu qəbul edər və söyləyərəm.)

Bu tipli münasibətlər və düşüncələr daxilində Sultan Rayev öz qəhrəmanını məqsədli olaraq okeanın ortasındakı bir parça torpaqda qəlbindəki əzabları ilə baş-başa saxlayır. O, bu torpaqda əxlaq və düşüncə baxımından özündən kəskin fərqlənən arvadı, oğlu və qızı ilə bərabər yaşamağa məhkumdur. Arvadı Man süni gen mühəndisi olmuşdu, oğlu Etix embirion hüceyrədən əmələ gəlmişdi, qızı Duna isə onların təsirində formalaşan yeniyetmə idi. Ailəsinin mənəvi-psixoloji o, cümlədən əxlaqi qüsurları səbəbindən Kxe Allahdan başqa dərdini deməyə, fikir bölüşməyə, ən nəhayət şikayət etməyə kimsə tapa bilmirdi. Lakin mövcud və əbədi dünyada insanın yeri, rolu və mövqeyi barədə insanlıq ölçülərini müəyyənləşdirən bir yığın suala cavab axtarılması Kxeni dərindən düşündürürdü. Sultan Rayev bir növ Kxenin timsalında cənnəti, cəhənnəmi, sevinci, kədəri, həyatı, ölümü və s. yalnız yaşadığımız torpaqda axtaran insanın özü və insanlığın əbədi mahiyyəti barədə fikirlər formalaşdırır. Bu məqamda onu süni intellektin bəşəriyyəti xilas edə bilərmi sualı ilə üz-üzə saxlayır. Böyük su daşqını zamanı Allahın qəzəbindəki süni intellekt faktorunun mövcudluğu qoyulan sualın ritorikasını müəyyənləşdirir.

Müəllif qloballaşan dünya üçün aktual hesab etdiyi insan nə etməlidir, necə yaşamalıdır və s. suallara cavab tapmaqla insanı tərki-dünyalıqdan uzaqlaşdırır, real dünyamıza bağlılığını gücləndirir.

Kxe dindar olmaqla yanaşı, həm də mütərəqqi fikirli insandır. O, günahları lənətləyir, paklığı alqışlayır, bəşəri tərəqqini də qəbul edir. Lakin süni insanı bəşəri tərəqqinin yeni mərhələsi hesab etsə də, onu lənətləyir. Çünki Kxeyə görə süni insan pisliklərin simvoludur. Kxe süni insan yaradıcısı professor Yan Helmutun öz yaratdıqları haqqında ona dediklərini hər zaman xatırlayır: " Sənə bir şey demək istəyirəm: Qiyamət gününü biz Tanrıdan yox, insanlardan gözləməliyik. Mənim yaratdığım insanların nə qəlbi var, nə vicdanı, nə əxlaqı. Zahirən insana bənzəsələr də mən onların daxili aləmini yarada bilmədim. Bunu bacarmadım. Onlara nəfəs versəm də, ruh verə bilmədim."

Sitatın müəyyən şərtilik daxilində yaşadığımız dünyada ruhsuz insanların müəllifliyi ilə həyata keçirilən fəlakətlərin, qarşıdurmaların, işğal siyasətlərinin, insan alverinin, yanan talelərin, kütləvi qırğınların, qətliamların, süni virus epidemiyası yayıcılığının ümumi mənzərəsini ilə uzlaşması inkarolunmazdır. Müəllif Allahın yaratdıqları ilə insanın yaratdıqlarının müqayisəsində Allaha məxsus olanları daha vacib və daha əhəmiyyətli hesab edir. Yazıçının təqdimatında məkan olaraq Allahın yaratdığı yer üzü fəlakət çarxı ətrafında fırlanan dəyirman kimi görünür. Məkan Allahın olsa da, buradakı ədalətsizliklərin, fəlakətlərin, mənəm-mənəmliyin sahibləri insanlardır. Görünənlərin bu günkü dunyanın reallıqlarını əks etdirməsi heç kimdə şübhə doğurmur. Əslində müəllif məkan və zaman kontekstində hadisələri mifik məkandan yaşadığımız real məkana transfer edir. Sultan Rayev bu keçiddən yer üzünü bürüyən bu günkü fəlakətləri əks etdirmək, eyni zamanda dünya nizamı yaratmaq üçün bir vasitə kimi istifadə edir. Yazıçı bu məqamda insanlar üçün mifik məkanın sakini olan Kxenin həyat idealını səsləndirir: " İnsanların ruhunu təmizləmək, onlara

həqiqi yolu göstərmək, Yaradanın nurunu onların qəlbinə qaytarmaq." Bu fikirləri dünyamızın xilası naminə qlobal düşüncələr ifadə etmək baxımından səciyyəvi hesab etmək olar.

Sultan Rayevin "Daşqın" romanı mifik -fantastik sujetlər əsasında yazılmış əsərdir. Romandakı mifizm elementlərindən həyatı daha dərindən dərk etmək üçün istifadə edilmişdir. Yazıçı bu məqsədlə fantastik sujetlərdən real gərçəklikləri əks etdirən sujetlərə keçid edir. Sultan Rayev romanda utopiya-xaos-kosmos keçidindən də məharətlə yararlana bilir. Ona görə də "kosmos" məqamı yazıçıya mifik yanaşma kontekstində yer kürəsində baş verəcək fəlakətlərin tam aydınlığı ilə dərk edilməsinə şərait yaradır. Romanda baş verən hadisələrin mahiyyəti fəlsəfi, elmi və irfani düşüncələr daxilində açıqlanır.

Müəllifin Nəhəng su daşqını zamanı baş verən hadisələrə münasibəti kifayət qədər maraq doğurur. Bildiyimiz kimi türk mifologiyasında su kultu daha çox həyat mənbəyi kimi göstərilir. Su yeni həyat amili və keçmişlə gələcəyin əlaqələndiricisi rolunda türk mifik baxışlarında daha çox yer ala bilmişdir.

Türk dünyamızın bir çox klassiki kimi Azərbaycan ədəbiyyatının nəhəng siması Məhəmməd Füzuli yaradıcılığında su paklıq, saflıq, təmizlik rəmzi hesab edilmiş və Məhəmməd Peyğəmbərin tərənnümü üçün bu əlamətlərdən lazımi formada istifadə edilmişdir.

Rövzeyi-kuyinə hərdən durmayıb eylər güzar,
Aşıq olmuş, qaliba, o sərvi-xoşrəftara su.
Su yolun ol kuydən torpaq olub tutsam gərək,
Çün rəqibimdir, dəxi ol kuyə qoymam varə su.
Tinəti-pakini rövşən qılmış əhli-aləmə,
İqtida qılmış təriqi-Əhmədi-Muxtarə su.

Sultan Rayevin "Daşqın" romanında da su irfani və real anlamlarda yeni həyatın, yeni nizamın yaradıcısı rolunda məna qazanır. Göründüyü kimi romanın adı da su ilə bağlıdır. Su burada həm fəlakət, həm də həyat rəmzidir. Baxmayaraq ki, su daşqını bütün yer kürəsini fəlakətə qərq etdi, amma sular içərisində Allahın mərhəmətindən yaranan bir parça torpaq yeni həyat məkanına çevrildi. Əslində müəllif sular içərisində yeni qurduğu dünyanın simvolikasında yaşama haqqının mümkünlüyünü pisliklərdən, dünyagirlikdən, mənəm-mənəmlikdən və saysız hesabsız rəzalətlərdən uzaqlaşmaqda görür. Bunun əksinə olaraq həqiqət yolundan uzaqlaşmağın aqibəti isə Allahın qəzəbinə düçar olmaqdır. Ona görə də Nəhəng su daşqınından sonra Allaha sevgisi müqabilində yalnız Kxenin özü və ailəsi üçün yaşamaq məkanı yaradanTanrı Kxenin ailə üzvlərinin insanlığa zidd hərəkətləri müqabilində bu məkanı yenidən sulara qərq etdi. Buradakı mifik yanaşma olsa da simvolika mənanın çatdırılması baxımından əhəmiyyətli rol oynayır.

Göründüyü kimi ifrat sonda sıfıra bərabərdir fəlsəfi hökmündə olduğu kimi tənzimlənən yeni dünya iddiası ortaya atılır, həm də onun mahiyyətinin nə olduğu düşüncələri zəbt edir. Lakin bu tənzimləmədə dəyişən nə isə olacaqmı? Müəllif bu sualın cavabını atom fəlakəti ilə (Yeni Su daşqını) üz-üzə dayanan qloballaşan dünyamızın xilasını və nizamını insanlıq keyfiyyətlərinin (əxlaqın, mənəviyyatın, ruhun, vicdanın və s.) dünyaya hakim olacağı zamanda axtarır. Ona görə də yazıçı dünya nizamının yaranmasında doğru olaraq formal dəyişməni yox, mahiyyət dəyişməsini vacib sayır.

**Nəticə.** Müəllifin son qənaəti budur ki, insanlıq keyfiyyətləri yüksək olanlar təkcə Tanrının yox, həm də taleyin sınağından məharətlə çıxa bilirlər. Bu baxımdan Sultan Rayev öz qəhrəmanı (həm də idealı) olan Kxenin yeni dünyanın yeni sakini olmasının səbəbini həyata olan sevgisi ilə bağlayır. Bu həm də Allahın insanlara verdiyi haqdır. Demək dünya nizamı qorxu yox, sevgi üzərində yarana bilir: Allaha, dünyaya və insanlara olan sevgi üzərində. Bunu həm də dünyada nizamlı yaşamaq üçün (həm də dünya nizamı qurmaq üçün) müəllifin insanlara çağırışı kimi də qəbul etmək olar. İrland əsilli Böyük Britaniya yazıçısı, Nobel mükafatçısı Bernard Şounun bir fikrini xatırlatmaq istərdim: "Biz göydə quş kimi uçmağı, suda balıq kimi üzməyi öyrəndik, lakin yer üzündə insan kimi yaşamağı öyrənə bilmədik". Mənə elə gəlir ki, Sultan Rayevin "Daşqın"

romanını oxuduqdan və onun mahiyyətini dərk etdikdən sonra hər bir oxucunun fikirlərinə bu sözlər hakim kəsiləcəkdir: "Yer üzündə nəinki insan kimi yaşamağı bacarmaq, eyni zamanda bu məkanda dünya nizamı yaratmaq da mümkündür".

## ƏDƏBİYYAT

**1.** Sultan Rayev. "Daşqın" , Bakı, 2023
**2.** Cəfərov N. Türk dünyası: Xaos və kosmos, Bakı, 1998
**3.** Quliyev E. Türk xalqları ədəbiyyatı, Bakı, 2023
**4.** Şəhriyar. Yalan dünya, Bakı, 1993
**5.** Ziya Paşa. Külliyyatı, I və II cildlər, İstanbul, 1965